# Prezident İlham Əliyevin 2024-cü ildə Şuşaya səfərləri

**12 mart 2024**

Prezident İlham Əliyev və ölkəmizdə dövlət səfərində olan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə Şuşaya səfər ediblər;

Şuşanın baş planı ilə tanış olub, Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə baxıblar.

**10-11 may 2024**

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda birinci tunelin açılışı olub;

Birinci yaşayış kompleksinin açılışı olub;

Üçüncü yaşayış kompleksinin təməlqoyma mərasimi keçirilib;

"Şirin su" hamamının bərpadan sonra açılışı olub;

Mamayı məscidinin bərpadan sonra açılış mərasimi keçirilib;

Şuşa rayonunun Turşsu qəsəbəsinin təməli qoyulub;

VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - islam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi keçirilib.

**17 may 2024**

İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko Şuşa şəhərinə səfər ediblər;

Azərbaycan ilə Belarusun birgə istehsalı olan avtobusa və Belarus Prezidentinin hədiyyə etdiyi traktorlara baxıblar;

Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin işğal dövründə güllələbaran edilmiş heykəllərinə baxıblar;

Prezidentlərə Şuşanın baş planı barədə məlumat verilib;

Dövlət başçıları Şuşadakı Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə baxıblar;

Bülbülün ev-muzeyində və Cıdır düzündə olublar.

**5-6 iyul 2024**

Prezident İlham Əliyev, ölkəmizdə səfərdə olan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Qırğız Prezidenti Sadır Japarovla Şuşaya səfər ediblər;

Prezidentlər 23 binadan ibarət birinci yaşayış kompleksində və Aşağı Gövhər ağa məscidində olub, şəhəri gəziblər;

Dövlət Xidmətləri Mərkəzinin, sutəmizləyici qurğular kompleksinin və Aşağı Gövhər ağa məscidinin, "İsa bulağı" istirahət kompleksinin açılış mərasimləri olub.

**20-21 iyul 2024**

İlham Əliyev Şuşada 2-ci Qlobal Media Forumunda çıxış edib.

**19-20 sentyabr 2024**

Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışı olub;

Bayraq meydanının açılış mərasimi keçirilib.

Azərbaycan. - 2025.- 9 yanvar (№ 3).- S.6.